***Sədaqət NEMƏTOVA***
***Naxçıvan Dövlət Universiteti***

# AĞI JANRININ TİPOLOGİYASI

Ağı janrının qədim dövrlərindən başlayaraq böyük bir yol keçdiyi həqiqətdir. Bu barədə Nizami Cəfərov yazır: «Qədim türk poeziyasının həm kəmiyyət, həm keyfiyyət-sənətkarlıq baxımından əhəmiyyətli bir hissəsi qəhrəmanların ölümünə həsr olunmuş ağılardır. Bunlardan Turan hökmdarı Alp Ər Tonqaya, Hun xaqanı Atillaya deyilmiş ağılar qədim türklərin milli dövlətçilik hisslərinin nə qədər güclü olduğunu bir daha təsdiq edir. Həmin şeirlərdə hökmdar – qəhrəmanın tarixi qüdrətindən danışılır, onun ölümü ilə dünyanın yiyəsiz-sahibsiz qalması, ictimai nizamın pozulması göstərilir.

Alp Ər Tonqa ağısı böyük Turan hökmdarlarının şərəfinə yaradılmış, dastanın davamı (bəlkə də sonluğu) olub, M.Kaşğari «Divan»ının müxtəlif səhifələrinə bənd-bənd səpələnmişdir. Böyük Hun-türk hökmdarı Atillanın ölümünə həsr olunmuş ağı barədə məlumatı isə VI əsr tarixçisi Yordanes verir» (2, s.57).

Zaman keçdikcə müxtəlif türk xalqlarında ağı janrı özünü fərqli formalarla göstərsə də mahiyyət etibarı ilə bu qəmli əsərlər eynidir. Yasla, dərdlə bağlı olan bu ağılar bayatı-ağı, sızlama, mərsiyə, maani, xoyrat, dildemə və s. adlar altında təqdim olunsa da mənəvi mahiyyət etibarı ilə eynidir. Dərdin, ağrının, ölümün dərk olunmasına, eyni zamanda bu dərdin obrazlı, poetik bir şəkildə xalqa çatdırılmasına xidmət edir.

Bütün bu ağıların özlərinin də matəm baxımından tipoloji yaşı vardır. Məzmununa görə ağılar müxtəlif tiplərə ayrıla bilir.

Bu ağılar anaların dilindən deyilə bilir. Oğlu, qızı ölmüş analar müxtəlif ağılarla övlad itkisinə yas saxlayır, onu əzizləyir.

Bacı dilindən bacı və qardaş üçün deyilən ağılar var. Ata və ana üçün övlad dilindən deyilən ağılar da az deyil. Əri ölmüş qadının dilindən, eləcə də mərhum üçün yaxun qohumların dilindən söylənilən ağılar da var. Ağılar mətnin məzmununa görə bir neçə qrupa bölünür:

1.Acıq etmək, danlamaq, məzəmmət etmək hissləri ilə bağlı ağılar.

Bu tipli ağılarda mərhumun hara getdiyindən, sağ qalan qohumlarını kimə tapşırmasından söhbət açılır:

*Bir ev tikdim dəyirmi,*
*Pəncərəsi iyirmi.*
*Ölüb hara gedirsən,*
*Bu yurd sənin deyilmi.*

*Əzizim, yasəməni*
*Yar dərər yasəməni.*
*Ölməyin yəqin oldu,*
*Batırdın yasa məni.*

*Gəzdirdi çayda məni,*
*Yordu bu qayda məni.*
*Öldün, canın qutardın,*
*Qoydun ah-vayda məni. (1, s.236 ).*

2.Mərhumun gəzdiyi, oturduğu yerlərlə, istifadə etdiyi əşyalarla bağlı, eləcə də mərhumun qohumlarına təsiri ilə bağlı ağılar:

*Çantaları evimizdə qalan*
*Kitabları əllərdə qalan.*
*Cavanlar çiynində gedən,*
*Balama özüm qurban olaram. (3, s.64).*

*Dərdi daşa deyərəm,*
*Coşa-coşa deyərəm.*
*İki əzizim ölüb,*
*Qoşa-qoşa deyərəm. (1, s.241).*

*Dağların lalasiylə,*
*Əldə piyaləsilə,*
*Burda bir gəlin ölüb,*
*Yanının balasıylə. (1, s.234)*

*Bağa girdim bağbansız,*
*Dəvə gördüm sarvansız.*
*Aləmə dərman dedim,*
*Balam öldu dərmansız. (1, s.235)*

3.Bəzi ağılarda mərhumun uzun müddət xəstə olması, dərdinin əlacsızlığı önə çəkilib:

*Ov gəlsin, ov olmasın,*
*Çaxmağı qov olmasın.*
*Səni vuran ovçunun,*
*Tərlanı ov olmasın. (1, s.244)*

*Dərdinə dərman tapılmayan,*
*Ağ ciyəri suya dönən.*
*Qara ciyəri qana dönən*
*Ağızı acı dərmanlı*

*Bədəni ulduz yaralı*
*Axar sulardan doymayan canına*
*Anan qurban, anan qurban. (3, s.64).*

4.Bir sıra ağılarda isə umukūsülük, kinayə hissləri qabarıq verilir:

*Sonam, səsəmi gəldin?*
*Dabanbasamı gəldin?*
*Sağlığımda gəlmədin,*
*Öldüm yasamı gəldin? (1, s.244)*

Bu ağının digər variantı da vardır:

*Sənəm yasamı gəldin?*
*Dabanbasamı gəldin?*
*Sağlığında gəlmədin,*
*Öldü yasamı gəldin?*

və yaxud

*Ələklər, ha ələklər,*
*Çirmələnib ağ biləklər.*
*Düşmənə xəbər olsun,*
*Hasil olub diləklər. (3, s.64)*

5.Təbiətlə insan arasında oxşarlıq axtarılan, təbiətə xas olan əlamətlərin insana aid edilməsi ilə bağlı ağılara daha çox rast gəlmək mümkündür:

*Mən öldüm ağlamaqdan,*
*Qəlbimi dağlamaqdan.*
*Bağda yarpaq qalmadı,*
*Yarama bağlamaqdan. (1, s.242).*

*Dağ döşündə sarı gul,*
*Yarı qönçə, yarı gül.*
*Tez açıldın, tez soldun,*
*Açmayaydın barı, gül.*

*Əziziyəm gül ey vay,*
*Bülbül ey vay, gül ey vay.*
*Bir bağa bağban oldum,*
*Heç dərmədim gül ey vay.*

*Bağçada gül, bağda gül,*
*Bağda danış, bağda gül,*
*Öldürdülər bülbülü,*
*Al qan oldu bağda gül.*

*Ağacda püstə sarı,*
*Dolan gəl dosta sarı.*

*Saçların kəfən eylə,*
*Cənazəm üstə sarı.* (*1, s.240*)

Ağılar poetik baxımdan olduqca təsirlidir. Bayatılarda olduğu kimi, ağılarda da əsas məna, təsirli fikir sonuncu misralarda, yəni 3-cü, 4-cü misralarda verilir. 1-ci, 2-ci misralar fikrin deyilməsi üçün hazırlıqdır. Amma sonrakı misralar ovqatın köklənməsi baxımından daha dolğun, daha tutarlıdır:

*Əziziyəm, yara var,*
*Yaram üstə, yaram var.*
*Paralanmış sinəmdə*
*Əl dəyməmiş hara var?*

*Əzizim laçın ağlar,*
*Soraqlar laçın ağlar.*
*Balası ölən ana,*
*Çəngələr saçın, ağlar.*

*Əynimdə zərxaram var,*
*Ürəyimdə yaram var.*
*Aç bağrımın başını,*
*Gör yanmamış haram var?* (*1, s.244-245*).

Bir sıra ağılarda daha çox anaların adı çəkilir. Dərdin daşıyıcısı kimi ana obrazı ağılarda da əsas obyektə çevrilir. Ananın yanıqlı qəlbi, sağalmaz dərdi, itkinin ağrılarını dərk etməsi bu motivli ağılarda daha çox nəzər-diqqəti cəlb edir:

*Mən aşiq gözəl ağlar,*
*Gözlərin gözəl ağlar.*
*Xəbər getsə anama,*
*Gör necə gözəl ağlar.*

*Ağacda xəzəl ağlar,*
*Dibində gözəl ağlar.*
*Oğlu ölən analar,*
*Sərgərdan gəzər, ağlar.*

*Bağça-bağda gül ağlar,*
*Bülbül ağlar, gül ağlar.*
*Oğlu ölən analar*
*Başa tökər kül, ağlar.* (*1, s.247*)

Azərbaycan ədəbiyyatı tarix etibarı ilə müxtəlif yönlərdə inkişaf etmiş, genişlənmişdir.

Klassik şairlərimiz ayrı-ayrı dövrlərdə müxtəlif mərsiyələr yazmışlar. Bu mərsiyələr əsasən görkəmli hökmdarların, onların yaxın adamlarının, eləcə də şairlərin özlərinin doğmaları, əzizləri ilə bağlı yazılan mərsiyələr idi. Ancaq daha sonrakı dövrlərdə – xüsusən M.Füzuli, Ş.İ.Xətai dövründə mərsiyə ədəbiyyatı daha geniş vüsət almışdır. Kərbəla hadisələrindən sonra yaranan saysız-hesabsız mərsiyələr meydana çıxmışdır ki, bu da geniş mənada mərsiyə ədəbiyyatının formalaşmasına səbəb olmuşdur.

Mirzə Rəsul İsmayılzadə «Azərbaycan mərsiyə ədəbiyyatında Sərrafın tutduğu yer» məqaləsində yazır: «Ərəb, fars və türk (Azərbaycan) ədəbiyyatında isə mərsiyə ədəbiyyatının əhəmiyyəti daha artıqdır və həm nəzm, həm nəsrdə bir sıra gözəl əsərlər yaranmışdır (4, s.32 ).

## ƏDƏBİYYAT

1. Azərbaycan bayatıları. Bakı: Elm, 1984, 260 s.
2. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı: AzAtam, 2004, 324 s.
3. Qobustan toplusu. Bakı: 1976, №3, 96 s.
4. Söz sərrafı. Bakı: Beynəlxalq Əlhida nəşriyyatının Bakı şöbəsi, 2005, 151s.

**Sadaqat Nematova**

**The typology of the genre elegy**

**SUMMARY**

In this article the historical way of the genre of elegy is studied. Examples of different types of this genre are given. Profound information about the typology of elegy is given. Examples of both modern and classical folklore are used.

**Садагат Нематова**

**Типология жанра причитаний.**

**РЕЗЮМЕ**

В статье прослеживается исторический путь эволюции жанра причитаний с древнейших времен до наших дней. В ней даются всесторонние сведения по типологии жанра, рассматриваются фольклорные образцы – причеты различных форм в истерическом плане.